Ədəbiyyat qəzeti

# 9-LUQ

## "Ulduz" jurnalı ilə "525-ci qəzet"in birgə layihəsi

*1. Müharibə - Ədəbiyyat - Müharibə ədəbiyyatı. Bu üçbucağın "tərəfləri" öz aralarında necə yola getməlidir?*
*2. Böyük Vətən müharibəsi və Qarabağ savaşının ədəbi fikirdə inikası: oxşar və fərqli cəhətlər...*
*3. Sözün bitdiyi yer haradadır?*



**Azər TURAN**
*("Ədəbiyyat qəzeti"nin baş redaktoru)*

1. "Ədəbiyyat qəzeti"nin 7 iyul 1943-cü il tarixli sayında tənqidçi Cəfər Cəfərov "Müharibə və ədəbiyyat" məqaləsində yazırdı: "Müharibə elə güclü bir təkandır ki, yeni keyfiyyətlər doğurmaya bilməz... Ədəbiyyatımıza bir çox yeni tiplər və obrazlar gəlmişdir. Bunlar isə özləri ilə bərabər, yeni süjet, mühit, dil xüsusiyyətləri və nəhayət, mədəniyyət də gətirmişlərdir. Bu obrazlardan birincisi əsgər obrazıdır. Klassik ədəbiyyatımızda belə bir obraza rast gəlmirik". Əslində, Cəfər Cəfərovun bu məqaləsindən iyirmi beş il əvvəl ədəbiyyatımızda belə obrazlar yaranmışdı. "Atıldı dağlardan zəfər topları, / Yürüdü, ileri əsgər, bismillah! O xan sarayında çiçəkli bir qız / Bəkliyor bizləri zəfər, bismillah!". Nəinki obraz, hətta başqa, əvvəlki Dünya müharibəsinin ağrılarını, insanlığın fəryadını ədəbiyyatlaşdıran şairlər - Məhəmməd Hadi və elə həmin "Bismillah" şeirinin müəllifi Əhməd Cavad var idi. Hadi Birinci Dünya müharibəsində Karpat dağlarında alay mollası olmuşdu. Əhməd Cavad Çanakkalada savaşmış, Azərbaycan əsgəri isə ədəbiyyatımıza daha çox bu iki şairin qələmi ilə daxil olmuşdu. Onlar isə sarsıdıcı müharibəyə adekvat olaraq insanların içindəki işığı, harmoniyanı qoruyan bir ədəbiyyatı, özü də möhtəşəm müharibə ədəbiyyatını yaratmışdılar. Çox sevdiyim bir frazanı burda da xatırlatmaq istəyirəm. Lui Araqon Fransanın faşistlər tərəfindən işğal edildiyi günləri xatırlayıb yazırdı ki, o çətin illərdə Matiss bizə kömək etdi ki, biz Günəşi qoruyub saxlayaq.

2. Baxın, biz tarixi proseslərin axarını, milli aqibətimizi dəyişən bir Vətən müharibəsinin içindən keçdik. Ədəbiyyatımız əsgərin yanında ola bildimi? Ola bilmədi. Amma Böyük Vətən müharibəsinin başlandığı günün ertəsi 1941-ci ilin 22 iyununda Səməd Vurğunun "Bilsin ana torpaq, eşitsin vətən, / Müsəlləh əsgərəm, mən də bu gündən" şeiri müharibənin ilk günündən etibarən dillər əzbəri oldu... Poeziya öz səfərbəredici missiyasını ləyaqətlə yerinə yetirdi. Simonovun "Gözlə məni" şeiri müharibənin içində həm ən gözəl eşq şeiri, həm də ən gözəl savaş şeirinə çevrildi.

1990-cı illərdən başlayaraq ədəbiyyatımızda Qarabağın məğlub və kədərli tərənnümündən, insanın pessimist ovqatından başqa nəsə gördünüzmü? Şəxsən mən görmədim. Ümumiyyətlə, doxsanıncı illər poeziyamız Qarabağın fəthi barədə düşüncələrə deyil, daha çox Xocalının matəminə qapıldı. Bu mənada, etiraf edək ki, otuz illik poeziyamız 44 günlük savaşımızın ruhuna uduzdu... Çağdaş poeziya Azərbaycan əsgərinin ruhuna hopa bilmədi, bu ruhla yanaşı addımlaya bilmədi. Əsgərlə bir səngərdə ola bilmədi...

3. Söhbət Vətən müharibəsindən gedirsə, sözün bitdiyi yer müəyyən mənada həm də milli poetik ruhun, az qala, otuz ilə yaxın bir müddətdə pasifizmə uğraması, barış ruhunun aktivləşməsi ilə müşayiət olundu. Unutduq ki, barış ruhu təslimçilik əhvalı doğurur. Təəssüf ki, 1990-cı illərin əvvəllərindən etibarən bizim ədəbiyyatımızda daha çox məhz çöküş ruhu, pessimizm, pasifist ovqat önə keçdi. Belə uğursuz bir tendensiya gəlişməyə başladı ki, ədəbiyyat müharibənin tərəfində olmamalıdır. Məsələn, sırf ədəbi estetikalar baxımından tutaq ki, Birinci Yeninin - Qəribin timsalında savaş ruhu görünmür. Çünki Qərib poeziyası üçün insan önəmlidir. Hətta ən adi, ən sıradan insanın yaşantıları önəmlidir. Tutaq ki, "Kitabeyisəngi məzar"dakı Süleyman əfəndinin qayğısı aldığı güllə yarası deyil, barmağındakı nasırın yaratdığı rahatsızlıqdır. Amma Qəribə qədər türk poeziyasının savaş gələnəyi var. Türkiyəni Vətən qılan amillərin başında türk poeziyası türk siyasətindən daha öndədir. Vətənin sınırlarını Atatürkün əsgərindən qabaq, Atatürkün özünü doğuran milli türk şeiri - məsələn, əvvəl Namiq Kamalın, sonra Mehmet Emin Yurdaqulun Vətən və milli mücadilə şeirləri müəyyənləşdirirdi.

*İştə ədu, qarşıda hazır-silah,*
*Arş yigitlər vətən imdadına.*
*Arş iləri, arş bizimdir fəlah,*
*Arş yigitlər vətən imdadına!*

*Cümləmizin validəmizdir vətən*
*Hər kəsi lütfüylə odur bəsləyən.*
*Basdı ədu köksünə biz sağ ikən;*
*Arş yigitlər, vətən imdadına!*

*Şani-vətən, hifzi-bilad ü ibad*
*Etmədədir süngünüzə istinad*
*Milləti eylərmisiniz namurad?*
*Arş yigitlər, vətən imdadına!*

*Rəhbərimiz qeyrəti-mərdanədir,*
*Hər daşımız bir neçə min canədir,*
*Cana deyil meyl bugün şanədir,*
*Arş yigitlər, vətən imdadına!*

*Yara nişandır təninə ərlərin,*
*Ölməyi son rütbəsidir əsgərin.*
*Altı da bir, üstü də birdir yerin,*
*Arş yigitlər, vətən imdadına!*

Yaxud bu milli ədəbiyyat dalğasının ardıyca, tutaq ki, Mehmet Emin Yurdaqulun türk gəncliyinin savaş ruhunu diri saxlayan, mehmetciyin ruhi yapısını hazırlayan şeirləri. "Mən bir türkəm, dinim, cinsim uludur / Sinəm, özüm ateş ilə doludur. / İnsan olan vətəninin quludur. / Türk evladı evdə durmaz, gedərim" təlqinləri.... Onun da ardıyca Mehmet Akif... Nəinki Çanakkala əsgərinin, hətta Çanakkala şəhidinin dilində danışan, şəhidin ruhu ilə irtibata keçə bilən Mehmet Akif... Sonra müharibə dövrü bitdi, ədəbiyyat dövrü başlandı. Estetikalar, cərəyanlar önə keçdi. Orxan Vəli və Birinci Yeni, ardıyca, İkinci Yeni... Amma burda da bir həssas məqam var. Bu poeziyanın gəlişdirdiyi, təbii ki, nə Birinci, nə İkinci Yeniyə uzaqdan, yaxından istiqamət almayan yeni poetik paradiqmalar. Bizdə heç o da olmadı. Problemin bu aspektinə mən 2000-ci ildə "Yeni Azərbaycan" qəzetinin "Ədəbiyyat" əlavəsində, sonra yenidən 2004-cü ildə "Ədəbiyyat qəzeti"ndə Süreyya Berfenin "Kıbrıs" şeiri barədə yazımda toxunmuşdum. 18 ildən sonra həmin şeirə yenidən diqqəti cəlb etmək üçün "On iki misra - fəlakətin soyuq mənzərəsi" adlı başqa bir yazı yazdım.

"Kıbrıs" şeirində düşmən tərəflər yoxdur. Müharibə var. Müharibənin törətdiyi fəlakətin təsviri var. Eynən Vereşaginin keçmişin, indinin və gələcəyin cahangirlərinə ithaf etdiyi "Müharibə apofeozu" tablosunda olduğu kimi. 2000-ci illərdən başlayaraq Azərbaycan ədəbiyyatında düşmənlə bəzən sevgi dilində danışan fərqli bir düşüncə tərzi də təzahür etdi. "Ədəbiyyat müharibə istəmir" deyən ədəbi tənqid də bu düşüncə ilə çox vaxt mülayim davrandı. Bəzən hətta bu fikirlərə ortaq oldu. Dediyim kimi, 15 il aralıqla Süreyya Berfenin bu şeiri barədə yazarkən, nəhayət, məndə belə bir sual doğdu: Qarabağ müharibəsi 30 ilə yaxındır ki, yaddaşımızda deyil, həyatımızda davam edir. Bizim müharibə istəməyən ədəbiyyatımızda Qarabağdakı itkilərimizin, baş verən fəlakətlərin çevrəsini 12 misralıq "Kıbrıs" şeirində olduğu kimi aydın və sarsıdıcı təsvir edən poetik bir örnək ortaya çıxdımı? Əslində, müharibə istəməyən ədəbiyyat, öz həqiqi ədəbiyyatlığını isbatlamaq üçün heç olmasa, bunu etməliydi. Bizdə bu da olmadı.

1990-cı illərin əvvəllərində mənim iş yerimə tez-tez Məryəm adlı bir şəhid anası gəlirdi. Məryəm xanım gənc və gözəl bir qadın idi. Müqəddəs Məryəm yaşındaydı və hər dəfə qoynunda bir fotoşəkil olardı. Bizim bu Məryəm ana oğlunu qurda-quşa yem olandan sonra hansı əlamətinə görəsə tanıyıb savaş bölgəsindən tapmışdı və şəkil də Məryəmin oğlunun yarıskelet nəşini əks etdirirdi. Bax, ədəbiyyatımız, əslində, Məryəmin iztirabını yazmalıydı. Ədəbiyyatımızın "Məryəm" şeiri yazılmadı. Yazılmadığına görə də indiki halda poeziyamız bu ədəbiyyatın oxucusu olacaq insanların içindəki ağrının nəinki fövqünə qalxa bildi, heç o ağrıların yaxınlığında addımlamağı belə bacarmadı... Mənim üçün müharibənin deyil, ədəbiyyatımızın qarşısında sözün bitdiyi yer bu məqamdır...



**Elnarə AKİMOVA**
*(Filologiya elmləri doktoru, tənqidçi-ədəbiyyatşünas)*

1. Əslində, yaradıcılıq prosesi heç vaxt adi, sakit ahəngdə təzahür etmir, onun yolu həmişə əzablı və ağrılı ovqatla müşayiət olunur. Sadəcə, cəmiyyətin öz durumu dəyişiləndə, millət tarixi sınaqla üz-üzə qalanda ədəbiyyatın məsuliyyət yükü daha da ağırlaşır. O, bütünlüklə özünü hakim olaylara kökləməyə, vətəndaşlıq, ziyalılıq pafosunu mühiti sarmış olan neqativ hallar, faci gerçəkliklər əleyhinə qaldırmağa səfərbər edir. Yeni xalqla, millətlə bahəm ədəbiyyatın özü də bir növ tarixi sınaq, imtahan qarşısında qalır. Olsun ki, bu məqamda ədəbiyyatın göstərdiyi fəal mövqe bütün dövlət, cəmiyyət miqyasında qazanılan zəfərin, qələbənin qarantına çevrilir. Bu baxımdan, müharibə məqamları ədəbiyyatın həm də tarixi sınaq dövrü sayılmalıdır. Baş verən təzadlı, dramatik olaylara diqqət yönəltmək, müharibə psixologiyasını yaratmaq, onun görüntülərini əks etdirmək vəzifəsini ümumi məram kimi irəli sürmək mənasında.

O ki, qaldı müharibə ədəbiyyatı məsələsinə. Belə bir qənaət var ki, "zamanla yaşayan hər bir sənət əsərini bu və ya başqa qırğınla, davayla, müharibə ilə əlaqələndirmək və onun nəticəsi kimi ortaya çıxdığını sübut eləmək mümkündür. Ədəbiyyatın mayasında qan durur!!!" Əlbəttə, bu qənaəti yaranmış bütün sənət örnəklərinə onun mövcudluq səbəbi kimi şamil edə bilmərik. Yəni, ədəbiyyat həyatın ifadəsidirsə, onu yalnız bu hadisələrdən biri olan müharibə amili ilə məhdudlaşdırmaq doğru olmazdı. Lakin bu da bir həqiqətdir ki, ən parlaq bədii nümunələrin əksəriyyətinin yaranmasına törədilən qanlı-qadalı hadisələr rəvac vermişdir. Gözlənilən böyük əsərlər isə o zaman yaranmışdır ki, müharibə dövründə yazıçının tale-

yi ümummilli talelə eyniləşsin. Belə bir eyniyyətin olmadığı yerdə nə problemlərin bədii həllini vermək mümkün olar, nə də daha dərin qatlara eniş üçün enerjiyə sahiblənmək.

Ədəbiyyat, sənət insanları birliyə səsləmir, birliyə hazırlayır. Ziyalının rolu, aydının missiyası insanları hər cür keçid dövrünə, sınaq məqamlarına hazırlamaqdır. Düşüncədə, ovqatda və fəlsəfədə vahid məkanı yarada bilmək mənasında helledici rol mənəviyyat adamlarının üzərinə düşür. Biz - uşaqlığı və gəncliyi müharibənin faci yaşantıları içrə puç olan nəsilik. 90-cı illərin o məşum reallıqlarından uzaqlaşdıqca yaralarımızın ruhən daha dərində olduğunu hər ötən il bizə daha dərindən hiss etdirdi. Nəhayət, tarixi-etnik yaddaş, müstəqil dövlət təfəkkürü və istiqlal təlimi ilə bağlı bizə aşılanan vətən sevgimiz şüurumuzun, milli-mənəvi varlığımızın tərəqqi hərəkatında iştirak edib öz işini gördü. Böyük əzm və coşğu ilə ön cəbhəyə döyüşə atılanları, vətənin ərazi bütövlüyü uğrunda can fəda etməyə hazır olanları gördükcə qürurlanmaya bilmədik. Budur, Türk olmaq ibtidadan yurd üçün savaşmağa müştaq olmaq demək! Dünyaya meydan oxumaq, "bir hilal uğruna" min dəfə ölüb doğulmaq demək!

**2.** Bizdə Qarabağ müharibəsi ilə bağlı ümumi mənzərəni real ifadə edən obyektiv qənaət bundan ibarətdir ki, müharibə ovqatı bütünlükdə ədəbiyyatı sarmadı, onun aparıcı mövzusuna çevrilmədi. İnsanları qisas hissinə köklənmək, onları vətənin azadlığı üçün ölüm-dirim mübarizəsinə sövq etmək üçün ədəbiyyatımız bütün bacarıq və qüvvəsi ilə meydana atılmadı. Təsadüfi deyil ki, 1941-45-ci illərdə yaranan müharibə ədəbiyyatı çağdaş epoxaya örnək timsalında göstərilmiş, həmin dövrün bədii nümunələrinin döyüş ovqatı yaratmaq prosesində daha məhsuldar və effektli rol oynadığını qeyd edilmişdir. Bu dövrün ədəbiyyatına aid olan mənəvi səfərbərliyin vüsət və miqyası Qarabağa dair mətnlərdə görünmədi. Bəlkə buna görə Böyük Vətən müharibəsi zamanı yazılan nümunələr 1941-1945-ci illərin müharibə dövrü psixologiyası haqqında tam və dolğun təəssürat yaradır. Ancaq Qarabağ müharibəsi bədii sözün işığında öz dolğun təcəssümünü tapmadığından dövrün mənzərəsi ehtiva olunmadı. Hətta bir qədər irəli gedib demək olar ki, 1941-1945-ci illərə nisbətən Cümhuriyyət dövrünün ədəbiyyatı mənəviyyata milli kimlik, milli mənlik ovqatının aşılanması baxımından xüsusi önəm kəsb edir və bütün dövrlər üçün görk edilə biləcək səviyyədə ona üz tutulmasına layiq ədəbiyyatdır. Həqiqətən də, mənəvi səfərbərlik ruhunun dirçəldilməsində, ümumxalq ruhunun hürriyyət məramı ətrafında birləşdirilməsində XX əsrin əvvəllərinin milli özünüdərk, milli istiqlaliyyət idealı ilə yoğrulmuş türk poeziyasının xidməti əvəzsiz olmuşdur. Bu dövrdə poeziyada və nəsrdə tərənnüm və milli özünüdərkdən doğan milli ləyaqət və şərəfin vəsfi digər mövzu və problemləri kölgədə qoymuşdur. Eyni qənaəti təəssüf ki, 90-cı illər ədəbiyyatının ümumi pafosu, ədəbi mənzərəsi haqqında səsləndirmək çətindir. Ədəbiyyat vətənpərvərlik ruhunu, yurd sevgisini sözün tam mənasında təlqin edə, mənəviyyata təsir baxımından arbitr rolunu oynaya bilməmişdir. Ümumiyyətlə, müharibədəki məğlubiyyətimiz bizim mədəni-ədəbi prosesdə sınma məqamının təzahürü kimi ümumiləşir.

Baxın, son 44 gün ərzində Azərbaycan əsgəri tarix yazdı, Ali Baş Komandan Qarabağ problemini dünyanın diqqət mərkəzinə gətirməyə müvəffəq oldu. Amma 30 illik zaman ərzində Azərbaycan yazıçısı Qarabağ problemini mənəvi birlik məhvərinə çevirə bilmədi. Həm yazı səriştəsi nöqteyi-nəzərindən, həm də gerçəklərə yönələn baxışın intuitiv mənalandırılması cəhətdən seçilə bilmədi bu əsərlər. Müharibəyə həsr olunmuş əksər əsərləri oxuyub onlar haqqında tənqidi məqalələr yazan biri kimi deyirəm. Bu dövrün poeziyasında əsas bədii ovqat tragik məqamlar təşkil etdi. Ölüm, ah-zar, gözyaşı, nalə, inilti, fəryad, şikayət - Qarabağ savaşına həsr olunmuş ədəbiyyatın əsas pafosu bunlardan ibarətdir. Yaxud nəsrdən danışsaq, qaçqın həyatının təsviri var, müharibə ilə bağlı görüntülər var, lakin təsəvvür edin ki, Qarabağla bağlı əsərlər yazıldı ki, erməni adına belə rast gəlmədik. Biz müharibə aparan bir ölkənin yazıçısından bunu gözləyirdikmi?! Yox, qarışdırmayaq, söhbət heç də yazarın müsəlləh əsgər kimi silahı qələmlə əvəzləyib düşmənə tuşlamaqdan getmir. Burada söhbət yazıçının ideoloji dürüstlüyündən gedir ki, ortaya qoyduğu əsərlə milli cəmiyyətin həssas və ayıq yanaşdığı məsələlərə müəyyən təklif və əlavələrdə bulunsun. Yəni, siyasətin işləyə bilmədiyi dərinlərdə Söz ideoloji vasitə olaraq qələm çala - Siyasət işlədə bilsin. Digər tərəfdən, ədəbiyyat, bədii söz həm də tarixin yuvasıdır, bu günün dərslərini zamanın sonrakı axarına qatan və gələcəyə ötürən ən etibarlı məxəzdir. Bu halda qanunauyğun bir məqam da var: baş verənlərlə birlikdə ona münasibət də tarixin predmetidir! Bu baxımdan, dövrün epoxal gerçəkliklərinə nüfuz, cərəyan edən hadisələrin bütün kəskin və anlaşılmaz, faci və dramatik tərəfləri ilə birgə təcəssümü baxımından yaradılan əsərlər ədəbi mühitə, müasir təkamül prosesinə ciddi mənada bir təsir göstərə bilmədilər. Ədəbiyyat millətə enerji püskürdən qüvvət mənbəyi olmadı. Halbuki, milli-tarixi və fəlsəfi qatlara qədər müharibə mövzusunun dərkində uzun bir yol keçmiş ədəbiyyatdan bunu gözləmək olardı.

**3.** Bu yerlər son zamanlar o qədər çox oldular ki... Həm ağrılı, həm də sevincli mənada. Gəncə və Bərdədə şəhid olduğumuz uşaq ölümlərindən, oğullarının itkisindən havalanan anaların qol götürüb oynamasından tutmuş Şuşada eşidilən azan səsinə, rəşadətli Azərbaycan əsgərinin süpürdüyü Gövhər Ağa məscidinə qədər... O məqamlar və məkanlar ki, nə illah edirsənsə, içindəki yanğını ifadə etməyə Sözün gücü yetmir.



**Mətanət VAHİD**
*(ədəbiyyatşünas, esseist)*

**1.** Müharibə - körpələrin təəccüb və dəhşətdən bərələn gözləri, anaların sevinci silinmiş hüznlü üzləridir... İnsanlıq tarixi yüzlərlə müharibəyə şahidlik edib. Səbəbləri və vasitələri nə olursa-olsun, müharibə hər zaman qan, göz yaşı, ah-nalə, anaların fəryadı, oğulların, ərlərin itkisi, qurbanlar və faciələr deməkdir. Lakin 44 günlük Vətən müharibəmizin, haqq uğrunda savaşımızın göstərdiyi kimi, müharibə həm də bəzən illərcə sürən sülhün bəxş edə bilmədiyi öz torpaqlarına sahiblənmək haqqı, xalqın qürurunun geri qayıtması üçün vacib, qaçılmaz olan qərarıdır.

Homerin "İliada" və "Odisseya"sından, Vergilinin "Eneida"sından tutmuş, günümüzə qədər yazılı ədəbiyyatın ən önəmli mövzularından biri müharibə olub, xalqların şifahi ədəbiyyatında qəhrəmanlıq dastanları mühüm yer tutub. Müharibə ədəbiyyatı necə yazılmalıdır? - ətrafında müzakirə və mübahisələrin sengimediyi sualdır - döyüşü təbliğ etməlidir, ya barışı? Müharibənin şahidi olmayan müəllif döyüşləri təsvir edərkən uğurlu mətn yaza bilərmi? Ədəbiyyat müharibənin gerçəklərini əks etdirməlidir, yoxsa faktlardan, sənədlilikdən uzaq qalıb bunu publisistikanın öhdəsinə buraxmalıdır? I və II Dünya müharibələrinin, İspaniyada vətəndaş müharibəsinin şahidi, müharibə mövzusunda dünyaca şöhrət qazanmış əsərlərin müəllifi olan Ernest Heminquey deyirdi: "...müharibə haqqında həqiqəti axtarmaq və yazmaq çox təhlükəlidir... Cəbhəyə həqiqət ardınca gedən insan, aradığı həqiqətin əvəzində, ölümü tapa bilər. Lakin on iki nəfər gedib, yalnız iki nəfər qayıdırsa, onların özləri ilə gətirdiyi həqiqət əsl həqiqət olacaq". Odur ki, fikrimcə, müharibə ədəbiyyatı ən acı gerçəkləri yazmalıdır.

O, ilk növbədə, müharibə obrazını təqdim edə bilməlidir. Nəticədə, müharibə edən tərəflərin hər biri yüzlərlə, minlərlə itki verir. Müharibə qan gölüdür, ağrı-acıdır. Ədəbiyyat müharibələri törədən səbəbləri və səbəbkarları, həmçinin insan konsepsiyasını qabartmalıdır. Qeyri-insani şəraitdə və ölümün labüdlüyü qarşısında insanın davranışı, duyğuları diqqətdə olmalıdır. Ədəbiyyat kiməsə rəğbət, kiməsə nifrət aşılamadan oxucuya düşünmək, seçim etmək imkanı yaratmalıdır. Amma necə? Bax bizim müharibə ədəbiyyatımızın ən böyük problemi bu necəni əksərən seçə bilməməsi, ya düşmənə kin qusaraq, nifrət püskürərək ədəbiyyatın qanunlarını tapdalamasına, ya da aşırı tolerantlığı ilə aziklik kompleksinə səbəb olmasıdır. Müharibə insanın ən böyük sınaqlarından biridir, müharibə ədəbiyyatı yaratmaq da yazarların imtahanıdır. Buna görə müxtəlif mövzularda uğurlu əsərlərə imza ata bilən yazarlar da çox vaxt mükəmməl müharibə əsərləri yazmaqda çətinlik çəkirlər.

**2.** Adətən, ədəbiyyatda müharibə mövzusundan bəhs edilərkən Böyük Vətən müharibəsi haqqında yazılmış uğurlu mətnlərin adları çəkilir, müqayisələr aparılır, o illərdə yazarların qələmi ilə döyüşdüyü dilə gətirilir. O zaman ədəbiyyat ilk günlərdən etibarən müharibənin iştirakçısına çevrilmişdi. Böyük Vətən müharibəsi dövründə yazılan əsərlər sosial sifarişi yerinə yetirərək, dövlətin ideologiyasına xidmət edirdi, çağırışçı ədəbiyyat idi. Tədqiqatçıların yazdığına görə, o vaxt cəbhə üçün Azərbaycan yazıçılarının 12 külliyyatı və cəbhəçi şairlərin şeirlər toplusu çap edilmişdi. Onda ədəbiyyat ideoloji silah idisə, bu gün ona tamam fərqli meyarlardan yanaşırıq: artıq ədəbiyyatın cəmiyyət üzərində əvvəlki təsiri də yoxdur. O zaman sevilə-sevilə oxunan, əsgərləri qalibiyyətə həvəsləndirən əsərləri bu gün fərqli kriteriyalardan dəyərləndiririk.

Müharibə dəhşətli faciədir, zərrəcə humanizmi olmayan, müharibə qanunlarını heçə sayan düşmən ikiqat böyük faciədir. Bizim ədəbiyyatımız isə düşmənimizi tanımır, onu və düşmənliyini haqqı olduğu miqyasda mətnə gətirəcək qədər cürətli deyil. Belə mətnlərin əksəriyyətində düşmən - ümumiləşdirilmiş-rəmzi, yaşananlar üçün fon təşkil edən metaforik obrazdır. Yaxşı, bəs illərdir xalqımıza bu zülmləri rəva bilən kimdir? Xocalıda qətliam törədən, uşaqları diri-diri borulara doldurub yandıran, gənc qızlarımızı zorlayan, qadının döşünü kəsib südəmər körpəsinin ağzına verən, hamilə qadının belinə qaynar samovar bağlayan, bətnindən körpəsini çıxarıb nizənin ucuna taxan, sənətkarlarımızın ev muzeylərini xarabaya, məscidlərimizi donuz tövləsinə çevirən, torpaqlarımızda ekoloji terror törədən, maddi-mənəvi nəyimiz varsa, yıxıb sökən, ata-babalarımızın qəbirlərini belə, ən iyrənc şəkildə təhqir edən alçaq, murdar, qəddar, barbar düşmənimiz var. Sadalayanda belə, adamı dəhşət bürüyür. Qarabağ ədəbiyyatımız isə düşmən arxetipini yarada bilməyib.

Niyə müharibə ədəbiyyatımızda üstünlük təşkil edən əzabkeş qaçqın, məcburi köçkün obrazının içində erməni nifrəti, qisas yanğısı yoxdur? Niyə bu qədər haqsızlığa məruz qalan azərbaycanlı vəziyyətlə barışmış məğmun, məlul obraz olaraq təsvir edilir? Erməni kimliyi və "erməni bizdən nə istəyir?" sualına ədəbiyyatımız hansı şəkildə cavab verir? İllərdir torpaqlarımız erməni işğalında idi və ərazilərimizin itkisi, əsirlik və qaçqınlığın dəhşətli əzabları, alçaldılmalar, göz yaşları, müharibə insanının travmalarına çevrilmiş bütün yaşantılar ədəbiyyatda bu faciələrin xalqımızın başına niyə gəldiyi sualını doğurmalıdır.

Ədəbiyyat müharibə insanının alt-şüuruna, psixologiyasına nüfuz etməlidir. Bizim ədəbiyyatımızda mənfur sözünü bütün iyrəncliyi ilə haqq edən erməni faşizminin hərtərəfli obrazı yoxdur. Niyə ədəbiyyatımız qaniçən ermənini yetişdirən cəmiyyəti, tarixi, milləti, onun düşüncəsini öyrənmir? Hanı bizdə o müharibə əsəri ki, bədii gerçəkləri ilə qanı dondursun? Bizim uydurma deyil, onlarla real qəhrəmanımız var: Mübarizlər, Fəridlər, Raquflar, Poladlar, Şükürlər, Pərvinlər, Asiflər... Onlar haqqında yazılan bədii mətnlər ədəbi müstəvidə uduzur, qeyri-ixtiyari publisistikaya meyillənir. Düşmən obrazını haqqı ilə yaratmağa çalışan yazıçı neytrallığını qoruya biləcək qədər peşəkar olmalıdır, müəllifin səsi oxucunun başına düşməməlidir, tarixi gerçəkləri bədii gerçəyə çevirməyi bacarmalıdır.

İstisna bir neçə əsər adı çəkmək mümkündür, lakin ümumi mənzərəni dəyişmək üçün kifayət edəcək qədər dolğun, həm ədəbiyyat meyarlarına cavab verən, həm də sadaladığım məsələləri qapsayan, "bax budur" deyə, ürəkdən tikan çıxaran mükəmməl bir müharibə romanımız yoxdur. Yazılan az-çox uğurlu mətnləri danmıram, xüsusən poeziyada bu nümunələrin üstünlük təşkil etdiyi fikrindəyəm. Lakin ümumən müharibə poeziyasında daha çox şüarçılıq üstünlük təşkil edir.

**3.** Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərini məruz qoyduğu terror aktı zamanı uçmuş binanın dağıntıları altında həlak olmuş, kəfənə bükülü 10 aylıq körpəsini bağrına basıb ağlayan atanı izlədiyim an və bunun kimi heç nə deyə bilmədən göz yaşlarına qərq olduğum onlarla vəhşilik və qəddarlığın törətdiyi faciə - bunlar sözün bitdiyi yerdir. Lakin çətin olsa da, ədəbiyyat susmamalıdır, hətta sənət naminə yaranmış sənət də xalqa xidmət etməlidir.

*"Ulduz"*
*dekabr 2020*